*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 29 noyabr 2017-ci il № 90 (2207) Qiyməti 25 qəpik


# Ali Baş Komandan İlham Əliyev Tərtərdə "N" hərbi hissəsində yaradılan şəraitlə tanış olub



*Noyabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tərtər rayonu ərazisində yerləşən "N" hərbi hissəsində yaradılan şəraitlə tanış olub.*

*Müdafiə naziri general-polkovnik Zakir Həsənov Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.*

Bu gün Azərbaycan Silahlı Qüvvələri Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə öz inkişaf dövrünü yaşayır. Orduda həyata keçirilən islahatların nəticəsidir ki, Azərbaycan əsgəri havada, suda və quruda Vətənin maraqlarını şərəflə qoruyur. Hərbi hissələrin əsas komanda-qərargah vəzifələrinin peşəkar, ali hərbi təhsili olan mənəvi, fiziki və psixoloji cəhətdən hazırlıqlı, döyüş təcrübəsi toplamış zabitlərlə komplektləşdirilməsi ardıcıl şəkildə həyata keçirilir. Bununla yanaşı, birinci əməliyyat eşelonu birliklərində dayanıqlı müdafiənin təmin olunması istiqamətində əməli tədbirlər görülüb, müdafiə sistemi təkmilləşdirilib, qoşunların döyüş qabiliyyəti yüksək səviyyədə saxlanılıb. Ordunun döyüş qabiliyyətinin daha da artırılması, əməliyyat işləri üzrə hazırlığın gücləndirilməsi ilə bağlı birlik və birləşmələrin xeyli sayda komanda-qərargah təlimi keçirilib. Bu təlimlərə Silahlı Qüvvələrin müxtəlif qoşun birləşmələri cəlb olunub və ən müasir tələblərə cavab verən simulyator və kompüter şəbəkələrindən istifadə edilib. Ən əsası isə həmin təlimlərdə Azərbaycan Ordusu işğal altındakı torpaqlarımızı istənilən vaxt qaytarmaq əzmində olduğunu nümayiş etdirib.

Torpaqlarımızın qorunması və ərazi bütövlüyü uğrunda bu hərbi hissənin şəxsi heyəti də yüksək fədakarlıq göstərib. Onlarla hərbi qulluqçu yüksək fəxri adlara, o cümlədən 8 hərbi qulluqçu Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Hərbi hissəyə 2004-cü ildə Ali Baş Komandan tərəfindən döyüş bayrağı təqdim edilib.

Prezident, Ali Baş Komandan İlham Əliyev hərbi hissədə yaradılan şəraitlə tanış oldu. Dövlətimizin başçısına məlumat verildi ki, 6 hektar ərazisi olan hərbi hissədə qərargah binası, üç əsgər yataqxanası, 360 nəfərlik əsgər yeməkxanası, müxtəlif təyinatlı anbarlar, məişət otaqları və digər infrastruktur bölmələri, 100 maşınlıq avtomobil parkı yerləşir.

**(Ardı 2-ci səhifədə)**

# Ali Baş Komandan İlham Əliyev Tərtərdə "N" hərbi hissəsində yaradılan şəraitlə tanış olub



(Əvvəli 1-ci səhifədə)

Müdafiə naziri general-polkovnik Zakir Həsənov cəbhədəki əməliyyat şəraiti barədə Prezident, Ali Baş Komandan İlham Əliyevə ətraflı məlumat verdi.

Bu hərbi hissənin timsalında biz ordumuzda yaradılan yüksək şəraitin şahidi oluruq və bu şərait də öz növbəsində Azərbaycan Silahlı Qüvvələrinin hər zaman öz döyüşkən ruhunu qorumasına imkan verir. Bunu 2016-cı ildə cəbhədə baş verən hadisələr də göstərdi. Azərbaycan qoşunlarının mövqelərini dağıdıcı silahlardan, ağır artilleriyadan atəşə tutan düşmən layiqli cavabını aldı. Bu döyüş Azərbaycan Ordusunda yüksək mənəvi-psixoloji hazırlığın olduğunu üzə çıxardı. Aprel döyüşlərinin ən mühüm nəticəsi həm də ondan ibarət oldu ki, Ağdərənin, Cəbrayılın, Füzulinin işğaldan azad olunmuş ərazilərində Azərbaycan bayrağı dalğalandı. Ümumiyyətlə, aprel döyüşləri münaqişənin həlli dövründə dönüş məqamı idi. Bütün Azərbaycan cəmiyyətində ruh yüksəkliyinə səbəb olan bu hadisələr bir daha göstərdi ki, xalqımız torpaqlarımızın itirilməsi ilə barışmayıb və heç vaxt da barışmayacaq.

Bu hadisələr bir daha təsdiqlədi ki, Azərbaycanın danışıqlar masasında mövqeyi hər zaman prinsipiallığa əsaslanıb və bu, belə də davam edəcək. Bu prinsipiallıq isə həm də Azərbaycan Ordusunun güclənməsindən keçir. Artıq neçə illərdir ki, bununla bağlı həyata keçirilən islahatlar öz bəhrəsini verir, Silahlı Qüvvələrin döyüş qabiliyyəti gücləndirilir. Ordumuzda vətənpərvərlik ruhu bu gün ən yüksək səviyyədədir. Bununla da millətimizin güvənc yeri, qürur, ləyaqət rəmzi və özünütəsdiq imkanı olan Azərbaycan Ordusu xalqımızın



milli düşüncəsində ali və müqəddəs ucalıqda dayanır, dövlətimizin varlıq, mövcudluq və milli kimlik meyarı kimi çıxış edir. Xalqımızın Silahlı Qüvvələrə olan inamı isə ölkəmizin milli təhlükəsizliyinin təmin olunmasında ordunun şəxsi heyətinə böyük etimad yaradır.

**AZƏRTAC**

# Ağcabədidəki "N" hərbi hissəsində yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev noyabrın 28-də Ağcabədi rayonuna səfəri çərçivəsində Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində yaradılan şəraitlə tanış olub.*

Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Bu gün Azərbaycan dünyada həm də peşəkar ordusu olan ölkə kimi tanınır. Şübhəsiz ki, bu cür ordusu olan xalqın müstəqilliyi də əbədi və sarsılmazdır. Azərbaycanda ordu quruculuğu istiqamətində işlər ardıcıl surətdə aparılmaqla yanaşı, dünya təcrübəsi nəzərə alınmaqla həyata keçirilir. Milli Ordunun formalaşması və bu sahədə inkişafın təməlinin qoyulması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. 2003-cü ildən isə Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində çox mühüm addımlar atılıb. Bu tədbirlər Ordumuzun gücünü daha da artırıb. Bu gün Azərbaycanı dünya birliyində layiq olduğu yerə gətirən amillər sırasında Silahlı Qüvvələrin döyüş qabiliyyəti, texniki təchizatı, zabit kadrlarının hazırlıq səviyyəsi, əsgərlərin mənəvi-psixoloji durumu mühüm yer tutur. Təsadüfi deyil ki, Azərbaycanın bölgədə ən yüksək mövqelərə malik ölkə olmasını şərtləndirən əsas amillər sabitlik, dinamik iqtisadi inkişaf və güclü ordudur. Ordu quruculuğu istiqamətində həyata keçirilən layihələr arasında yeni hərbi hissələrin inşası, mövcudların isə əsaslı şəkildə yenidən qurulması mühüm yer tutur. Belə hərbi hissələrdən biri də Ağcabədi rayonunda yaradılan "N" saylı hərbi hissədir.



Hərbi hissədə Qərargah binası, əsgər yataqxanaları, yeməkxana kompleksi, tibb məntəqəsi və digər zəruri binalar inşa olunub. Qərargah binasında hərbi hissənin döyüş bayrağının yerləşdiyi xüsusi guşə yaradılıb, idarə heyətinin xidməti otaqları, konfrans zalı və digər zəruri otaqlar istifadəyə verilib. Qərargah binasında komandanlığın yüksək səviyyədə çalışması və istirahəti üçün bütün zəruri şərait mövcuddur.

Prezident, Silahlı Qüvvələrin Ali Baş komandanı İlham Əliyev hərbi hissənin əsgər yataqxanasında oldu, burada şəxsi heyət üçün yaradılmış sosial-məişət şəraitinə baxdı.

Binada ideoloji, məişət və digər zəruri otaqlar hərbçilərin ixtiyarına verilib. Əsgərlərin idmanla məşğul olmaları üçün yataqxana kompleksində trenajor zalı da yaradılıb. Hərbi hissənin ərazisində çörək sexi, hamam-camaşırxana-istixana kompleksi, texniki nəzarət və yanacaqdoldurma məntəqələri, avtomobil parkı və idman şəhərciyi yaradılıb.

Prezident, Ali Baş Komandan İlham Əliyevə interaktiv təlim-məşq sistemi barədə məlumat verildi. Bildirildi ki, burada şəxsi heyətin sinif şəraitində atəş qabiliyyətinin artırılması təlimləri keçirilir.

Azərbaycanda son dövrlərdə ordunun modernləşdirilməsi, hərbi hissələrin müasirləşdirilməsi istiqamətində görülən işlər ardıcıl davam etdirilir. Bu hərbi hissədə yaradılan şərait bir daha sübut edir ki, son illər Azərbaycan Ordusu Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə maddi-texniki bazasını gücləndirib və haqlı olaraq, dünyanın ən güclü ordularından biri kimi tanınır. Son dövrlərdə Ordumuzun əldə etdiyi qələbələr, qazandığı uğur və nailiyyətlər bir daha sübut edir ki, Azərbaycan Ordusu Ali Baş Komandanın əmri ilə istənilən an düşmənə sarsıdıcı zərbə vurmaqla torpaqlarımızı işğaldan azad etməyə qadirdir.

**AZƏRTAC**

# Cəbhəboyu zonada zabitlər üçün daha bir yaşayış kompleksi istifadəyə verilib

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, hərbi hissələrdə tikinti-quruculuq işləri davam edir.*



Noyabrın 27-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin rəhbər heyəti cəbhə bölgəsində zabitlər üçün inşa edilmiş daha bir yaşayış kompleksinin açılışında iştirak ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, iki mərtəbəli, 33 yaşayış və yardımçı otaqlardan ibarət zabit yataqxanası kommunikasiya xətləri ilə tam təchiz olunub. Müasir standartlara cavab verən yataqxana mebel və digər avadanlıqlarla təmin edilib.

Yaşayış kompleksinin həyətində yaşıllaşdırma və abadlıq işləri görülüb, mini-futbol meydançası və idman şəhərciyi salınıb, eləcə də hərbi qulluqçuların səmərəli istirahəti üçün digər lazımi şərait yaradılıb.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov yeni inşa edilmiş zabit yataqxanasında yaradılmış şəraitlə tanış olub, şəxsi heyətin sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması ilə bağlı komandanlıq qarşısında müvafiq tapşırıqlar qoyub.

# Pakistanın nümayəndə heyəti hərbi təhsil müəssisələrini ziyarət edib

Pakistan İslam Respublikası Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Zübair Mahmud Hayatın rəhbərlik etdiyi nümayəndə heyəti noyabrın 24-də Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasını ziyarət edib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Hərbi Akademiyanın rəhbərliyi ilə keçirilən görüşdə Azərbaycan ilə Pakistan arasında hərbi təhsil sahəsində əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Sonra general Z.M.Hayat Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində "Hibrid müharibələr və XXI əsr müharibələrinin çağırışları" mövzusunda müxtəlif kateqoriyadan olan zabit heyəti qarşısında mühazirə ilə çıxış edib.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**28 noyabr 2017-ci il.** Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 122 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Ayqeovit kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Bala Cəfərli kəndində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi, Ağbulaq kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Yarımca, Ağdam rayonunun Baş Qərvənd, Cəvahirli, Qaraqaşlı, Sarıcalı, Novruzlu, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Qorqan, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Şəhid döyüşçünün təltif olunduğu medal ailəsinə təqdim edilib



2017-ci ilin fevralında düşmən təxribatlarının qarşısını alarkən həlak olmuş müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu şəhid Fuad Fərhad oğlu Qafarovun ölümündən sonra təltif edildiyi medalın ailəsinə təqdim olunması ilə əlaqədar Xaçmaz şəhərindəki Heydər Əliyev Mərkəzində tədbir keçirilib.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Xaçmaz rayon İcra Hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayev çıxış edərək 2018-ci ildə yüz illiyini qeyd edəcəyimiz Azərbaycan Ordusunun tarixindən danışıb, müasir ordumuzun Azərbaycan Xalq Cümhuriyyəti Ordusunun varisi olduğunu tədbir iştirakçılarının nəzərinə çatdırıb. Qeyd olunub ki, əsl mütəşəkkil ordunun yaranması, formalaşması Ulu Öndərimizin adı ilə bağlıdır və bu, Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biridir.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğunda aparılan uğurlu islahatların xaçmazlılar tərəfindən də həmişə böyük ruh yüksəkliyi ilə qarşılandığını vurğulayan icra başçısı Azərbaycan Ordusu ilə fəxr etdiklərini, ona arxalandıqlarını və bu ordunun tezliklə Qarabağdan qələbə müjdələri gətirəcəyinə əminliklərini bildirib.

Aprel döyüşlərini xatırlayan Ş.Xanbabayev həmin günlərdə bütün xalqımız kimi hər bir xaçmazlının da Ali Baş Komandanın əmrlərinə hazır olduğunu və bu gün də qələbə əhval-ruhiyyəsi ilə yaşadığını nəzərə çatdırıb. Bu döyüşlərdə Xaçmaz rayonu da şəhid verməsinə baxmayaraq əhali ruhdan düşməyib və öz şəhidini alqışlarla son mənzilə uğurlayıb. Şəhid Fuad Qafarov məhz aprel şəhidlərinin intiqamını alan igid oğullarımızdandır.



Milli Qəhrəman Çingiz Qurbanovun atası Salman Qurbanov çıxış edərək şəhidlərin heç vaxt unudulmadığını, şəhid ailələrinin daim diqqət və qayğı ilə əhatə olunduğunu bildirib. O, övladının Vətən uğrunda şəhid olduğundan böyük qürur hissi keçirdiyini qeyd edərək xaçmazlı şəhidin valideynlərinə, doğmalarına da səbr, dözüm arzulayıb.

Polkovnik Abdulla Qurbani müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş F.Qafarovun Azərbaycan Respublikasının Prezidenti adından "Hərbi xidmətdə fərqlənməyə görə" III dərəceli medalla təltif olunması barədə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmrini tədbir iştirakçılarına çatdırıb və medal alqışlar altında şəhidin oğlu Fəridin yaxasına sancılıb. Dörd yaşlı şəhid övladının "Azərbaycan Respublikasına xidmət edirəm!" deməsi bütün tədbir iştirakçılarına duyğulu anlar yaşadıb.

Şəhidin atası Fərhad Qafarov göstərilən diqqət və qayğıya görə Azərbaycan Prezidentinə, Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirib.

Bir qrup hərbi qulluqçu və döyüşçü, F.Qafarovun ailə üzvləri şəhidin məzarını ziyarət edib, ehtiram əlaməti olaraq qarşısına qırmızı qərənfillər düzüblər.

AZƏRBAYCAN ORDUSU

# Vətən bu zirvədən aydın görünür

## Milli Qəhrəman Çingiz Qurbanovun ad günü qeyd edilib

*Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi şəxsi igidliyə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüş Çingiz Salman oğlu Qurbanovun ad günü münasibətilə Qusar şəhərində anım mərasimi keçirilib.*






Müdafiə Nazirliyinin bir qrup hərbi qulluqçusu, şəhidin ailə üzvləri, eləcə də Qusar rayon İcra Hakimiyyətinin nümayəndələri Şəhidlər xiyabanını ziyarət edərək qəhrəmanın məzarı üzərinə Müdafiə Nazirliyi adından əklil qoyub və qərənfillər düzüblər.

Anım mərasimində Əməkdar İncəsənət xadimi polkovnik Abdulla Qurbani Milli Qəhrəmanın qısa, lakin şərəfli ömür yolundan söhbət açıb. Şəhid əsgərin xidmətlərinin ölkə rəhbərliyi tərəfindən yüksək qiymətləndirildiyini, adının əbədiləşdirildiyini, xatirəsinin əziz tutulduğunu, Silahlı Qüvvələr tarixində ilk olaraq Müdafiə naziri general-polkovnik Zakir Həsənovun müvafiq əmri ilə adının xidmət etdiyi döyüş mövqeyinə verildiyini və şəxsi heyətin daimi siyahısına salındığını qeyd edib.

A.Qurbani Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin 2017-ci il fevralın 9-da Milli Qəhrəman Ç.Qurbanovun ailə üzvləri ilə görüşdə dediklərini mərasim iştirakçılarına bir daha xatırladaraq bildirib ki, əsgər Çingiz Qurbanov doğma torpaqlarımızı müdafiə edərkən qəhrəmancasına həlak olmuşdur. Çingiz böyük qəhrəmanlıq, igidlik göstərmişdir. Düşmənlə üzbəüz qalaraq qeyri-bərabər döyüşdə bir daha düşmənə göstərdi ki, Azərbaycan əsgəri nəyə qadirdir. O, geri çəkilmədi, qorxmadı, baxmayaraq ki, təkbaşına böyük diversant qrupu ilə üz-üzə qalmışdı. Son nəfəsinə qədər vuruşmuş, bir neçə işğalçını məhv etmiş, şəhidlik zirvəsinə ucalmışdır.

Biz Çingizlə fəxr edirik. Bütün Azərbaycan Çingizlə fəxr edir. Bu, bir daha göstərdi ki, Azərbaycan vətəndaşı, Azərbaycan gənci, əsgəri heç vaxt bugünkü vəziyyətlə barışmayacaq. Bu, bir daha göstərdi ki, Azərbaycan dövlətinin güclü əsgərləri var. O, böyük vətənpərvərlik, peşəkarlıq, rəşadət göstərmişdir.

Polkovnik Münasib Babayev Milli Qəhrəman Ç.Qurbanovun öz igidliyi ilə Azərbaycanın şanlı döyüş salnaməsinə yeni səhifə yazdığını, hər bir hərbi qulluqçu üçün örnək olduğunu vurğulayıb və böyük qürur hissi ilə deyib ki, hazırda ordumuzun sıralarında yüzlərlə, minlərlə Çingiz kimi igid oğullar var və onlar ölkəmizin ərazi bütövlüyünü təmin etmək üçün Ali Baş Komandanın hər bir əmrinə hər an hazırdırlar.

Qusar rayon İcra Hakimiyyəti başçısının müavini Elman Mustafayev bildirib ki, ordu sıralarına fiziki və mənəvi cəhətdən sağlam gənclərin hazırlanması, ordu ilə xalqın birliyinin daha da möhkəmləndirilməsi məsələləri Qusar rayonunda da prioritetdir. Bu məqsədlə Müdafiə Nazirliyi ilə birgə keçirilən kütləvi vətənpərvərlik tədbirləri mühüm əhəmiyyət kəsb edir.

"Dekabrın 29-da oğlumun həlak olduğu vaxtdan düz bir il ötəcəkdir. Ancaq bu müddət ərzində dövlətimizin başçısından, Müdafiə Nazirliyinin rəhbərliyindən, eləcə də qədirbilən, xeyirxah xalqımızdan o qədər diqqət və qayğı görmüşük ki, oğul itkisini tamamilə unutmuşuq. Digər oğlum da, mən də Ali Baş Komandanın əmri ilə silah götürüb döyüşə yollanmağa hər an hazırıq. Təki Vətən sağ olsun!", - şəhidin atası Salman Qurbanov deyib.

* * *




Mərasim Milli Qəhrəmanın xatirə lövhəsi vurulan küçədə davam etdirilib. Tədbir iştirakçıları şəhidin baralyefi qarşısına qərənfillər düzüblər. Ulu öndər Heydər Əliyevin və möhtərəm Prezidentimiz İlham Əliyevin Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda qusarlıların əvəzsiz xidmətləri barədə dedikləri xatırlanıb.

A.Qurbani xalqımızın Ümummilli Liderinin Qusar ictimaiyyəti nümayəndələri ilə görüşündən, general-mayor Mahmud Əbilovun yüz illik yubileyinin keçirilməsi haqqında sərəncamından, görkəmli sərkərdənin Vətənində abidəsinin ucaldılmasındakı unudulmaz xidmətlərindən, Ulu Öndərin Qusarda qələbəliklə qarşılanmasından danışıb.

Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Qusar rayon şöbəsinin sədri Canəli Hörmətov qusarlıların bütün zamanlarda Azərbaycan dövlətinə, dövlətçiliyinə sadiq olduqlarını vurğulayıb. Rayon gənclərinin hazırda Silahlı Qüvvələrin bütün qoşun növlərində təmsil olunduqlarını, Vətənə, xalqa, dövlətə sədaqətlə xidmət etdiklərini iftixarla qeyd edib. Şəhid ailələrinə, müharibədə sağlamlığını itirənlərə, veteranlara dövlət qayğısından minnətdarlıqla danışıb.

"Gözləyirik ki, Qarabağ müharibəsinin ikinci mərhələsi başlasın, aprel döyüşləri təkarlansın. Onda görəcəksiniz ki, Qusarda hələ nə qədər Çingiz kimi oğullar var", - veteran döyüşçü C.Hörmətov deyib.

Zabit Münasib Babayev, şəhidin qardaşı Beydulla Qurbanov çıxış ediblər. Sonda şəhidin anası Nailə xanım əsgərlərə müraciətlə deyib: - "Siz hər biriniz mənim nəzərimdə Çingizsiniz. Mən sizin simanızda Çingizi görürəm və inanıram ki, Çingizimin və digər şəhidlərimizin intiqamını siz alacaqsınız. Müdrik və qətiyyətli Ali Baş Komandanımızın rəhbərliyi altında qələbə bayrağımız tezliklə Şuşada, Xankəndidə və işğal altında olan digər torpaqlarımızda dalğalanacaqdır".

Tədbir iştirakçılarına Müdafiə Nazirliyinin nəşri olan A.Qurbaninin "Çingiz dastanı" kitabı hədiyyə edilib.

* * *

Cəbhə bölgəsində yerləşən hərbi hissədə Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun anım gününə həsr olunmuş tədbir keçirilib.

Əvvəlcə iştirakçılar Milli Qəhrəmanlar Qasım Rzayev, Naiq Yusifov və Çingiz Qurbanovun hərbi hissənin ərazisində yerləşən xatirə abidəsi önünə əklil qoyublar.

Milli Qəhrəman Çingiz Qurbanovun xidmət etdiyi bölmədə davam edən tədbirdə ümummilli liderimiz Heydər Əliyevin, eləcə də Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda həlak olan şəhidlərimizin xatirəsi yad edilib.

Tədbirdə çıxış edənlər Azərbaycanın Milli Qəhrəmanı Ç.Qurbanovun həyat və döyüş yolu barədə ətraflı məlumat verib, onun fədakarlığının şəxsi heyət üçün nümunə olduğunu diqqətə çatdırıblar. Çıxışlarda vurğulanıb ki, Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən Çingiz kimi igidlərin vətənpərvərliyi torpaqlarımızın tezliklə işğaldan azad olunacağını deməyə əsas verir.

Mərasim Gəncə Qarnizonu Zabitlər Evinin təşkilatçılığı ilə Çingiz Qurbanova həsr olunmuş filmin nümayişi ilə davam edib.

Hərbi təhsil

# “Təlimlər bizi zabit kimi formalaşdırır”

*Son illər Azərbaycanda yüksək səviyyədə aparılan ordu quruculuğu islahatları artıq öz bəhrəsini verib. Sabitlik və dinamik iqtisadi inkişafla yanaşı, güclü ordu quruculuğu müasir Azərbaycanı xarakterizə edən əsas amillərdən biridir. Azərbaycan Silahlı Qüvvələri istər döyüş qabiliyyəti, istərsə də maddi-texniki təchizatına görə regionda ən müasir hərbi struktura çevrilib.*



Ordumuzda güclü, təcrübəli, bacarıqlı hərbi kadrların hazırlanması Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin müəllim və zabit heyətinin üzərinə düşür. Gələcəyin zabitləri yüksək hərbi biliklərə yiyələnmək üçün bu məktəbdə təhsil alırlar. Məktəbin əsas fəaliyyəti ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasətilə bağlıdır.

Təhsilin əsas hissəsi məktəbdə keçsə də, kursantlar bilik və bacarıqlarını təlim mərkəzində sınaqdan çıxarırlar. Bu isə onların peşəkarlıq səviyyəsini daha da yüksəldir.

Bu yaxınlarda Azərbaycan Ali Hərbi Məktəbinin dördüncü kurs kursantlarının poliqona çıxış günündə istirak etdik. Səhərin erkən vaxtlarında "Həyəcan" siqnalı ilə şəxsi heyət yuxudan qaldırıldı. Hər kəs qaydaya uyğun olaraq maskalanma tədbirini yerinə yetirdi. Daha sonra plana uyğun olaraq cəld və çevik şəkildə əşya kisələrini, təhkim olunmuş silahlarını götürərək sıra meydanında taqımlarla düzüldülər. Zabitlər şəxsi heyəti yoxladıqdan sonra bölmə komandiri lazımi tapşırıqlar verib, kursantların texnikalarla səfərə çıxmaları üçün müvafiq əmr verdi. Az bir vaxtdan sonra texnikalar kalon şəklində təlim mərkəzinə doğru irəlilədilər.



Təlim mərkəzinin yaxınlığında maşınlardan düşən kursantlar marş həyata keçirmək üçün hazırlıq işləri gördülər. Bir müddətdən sonra hərəkət başlanıldı. Hər kəsdən öndə isə bir qrup kursantdan təyin olunmuş mühafizə manqası hərəkət edirdi. Onların əsas vəzifəsi marş zamanı yarana biləcək təhlükəni, düşmən pusqusunu vaxtında aşkar etmək və öz bölmələrimizin kalonlara açılması üçün vaxt qazandırmaqdır. Hamı öz fəaliyyətini uğurla yerinə yetirirdi. Müşahidələrdən də görünür ki, kursantlar dərs müddətində lazımi vərdişləri mənimsəyiblər.

Təlim mərkəzinə çatan şəxsi heyət zabitlərin nəzarəti altında yerləşmə tədbirlərinə başladılar. On gün davam edəcək təlim müddətində bütün ixtisas üzrə təhsil alan kursantlar silahlardan, texnikalardan atışlar aparacaq, dərs zamanı öyrəndikləri nəzəri bilikləri praktiki yerinə yetirməyə çalışacaqlar.

Zabit və kursantlara yaxınlaşıb həmsöhbət oluram. İlk olaraq bölmənin mənəvi-psixoloji vəziyyətinə cavabdeh zabit mayor Vüqar İsmayılovla söhbət edirəm. Zabit bu cür tədbirlərin vaxtaşırı keçirilməsinin əhəmiyyətindən söz açaraq deyir:

- Döyüş hazırlığı planına uyğun olaraq keçirilən belə tədbirlər şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi üçün vacib şərtdir. Kursantların təlim müddətində atışlar aparması üçün hər bir şərait yaradılıb. Onlar hər silahdan, həmçinin, zirehli texnikalardan da atışlar aparacaqlar.

Kursant Eşqin Misirxanov gələcəkdə ordu sıralarında zabit kimi xidmət etməyin qürurunu yaşayan gənclərdən biridir. "Bu gün bizlər dərsdə, təlimdə çətinlik çəkə bilərik, yorularıq. Amma unutmamalıyıq ki, nə qədər təlimdə zəhmət çəksən, döyüş meydanında qələbə də sənin olar. Dərslərdə peşəkar müəllimlərimizin sayəsində ixtisasımıza uyğun bilikləri öyrənir, poliqonda isə praktiki yerinə yetirmək imkanı əldə edirik. Çalışıram ki, hər şeyi yaxşı mənimsəyim və gələcəkdə tabeliyimdə xidmət edən heyətlə paylaşım."

Söhbətimi kəşfiyyat ixtisası üzrə təhsil alan kursant Olim



Əlizadə ilə davam etdirirəm. Füzuli rayonunda doğulub boya-başa çatan bu gəncdə formaya olan maraq ailədən irəli gəlir. Hələ uşaqlıqdan dayısının formasına həsəd aparan Olim elə dayısının məsləhəti ilə də hərbçi olmaq qərarına gəlir. Kursant zabit şərəfinin hər şeydən üstün olduğunu, Vətənə, xalqa xidmət etməyin qürurvericiliyindən söz açdı.

- Ümummilli Liderimizin adını daşıdığı məktəbdə təhsil almaq hamımız üçün böyük fəxrdir. Çünki zabit kadrının hazırlanmasında Ulu Öndərimizin müstəsna rolu var. Erkən yaşlarımda dayım həmişə dahi rəhbərimiz haqqında, onun orduya diqqət və qayğısından danışardı. Hamımız dərslərdə qazandığımız uğurlarla məktəbimizin şərəfini uca tutmağa çalışırıq. Təlimlərdə qazandığımız praktiki vərdişlər isə sabahkı xidmətimizdə bizim köməyimizə çatacaq. Təlimlər bizi zabit kimi formalaşdırır.

Kursant Fariz Babayev və Aqşin Bədəlov da yoldaşlarının sözlərinə qoşularaq Vətənə layiqli hərbçi olacaqlarına söz verdilər.

Bəli, bu günün kursantı sabahın zabiti kimi ordu sıralarında uğurla xidmət edəcək. Bu gün hərbi kadrların yetərli hazırlanmasında əsas amillərdən biri Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun orduya olan diqqət və qayğısıdır. Ordumuz Qarabağımızın bütün ərazilərini qısa zaman kəsiyində azad etməyə tam hazırdır. Artıq bu qəti mərhələyə gedən yolda hərbi və siyasi baxımdan xeyli mühüm nəticələr əldə olunub və bu proses davam etməkdədir. Şübhəsiz ki, Azərbaycan Ordusu təlimlərdə göstərdiyi potensial üstünlüyünü real nəticəyə çevirərək, Ali Baş Komandanın əmri ilə istənilən anda düşmənə sarsıdıcı zərbə vurmağa qadirdir.

**Baş leytenant
Məhəmməd NƏSİRLİ,
"Azərbaycan Ordusu"**

## Hərbi Dəniz Qüvvələrində “Dənizdə dövlət fəaliyyəti üzrə təcrübə mübadiləsi” seminarı keçirilir

Azərbaycan və Fransa Müdafiə Nazirlikləri arasında 2017-ci il üçün ikitərəfli hərbi əməkdaşlıq Planına əsasən, Bakı şəhərində "Dənizdə dövlət fəaliyyəti üzrə təcrübə mübadiləsi" mövzusunda seminar keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Hərbi Dəniz Qüvvələrinin qərargahında təşkil olunan ikigünlük tədbirdə "Dəniz təhlükəsizliyi", "Qaçaqmalçılığa qarşı fəaliyyətlər", "Dənizdə çirklənmənin qarşısının alınması" və digər mövzularda məruzələr dinləniləcək.

## Azərbaycan-Ermənistan dövlət sərhədində keçirilən monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, noyabrın 28-də Azərbaycan və Ermənistan dövlət sərhədinin Qazax rayonu istiqamətində keçirilən monitorinq insidentsiz başa çatıb.

Monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru və Saymon Tiller keçiriblər.

Ermənistan tərəfindən isə monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Gennadi Petrika, Oqnyen Joviç və Martin Şuster aparıblar.

AZƏRBAYCAN ORDUSU



## NATO polkovniki:

# Azərbaycan alyans üçün çox vacib müttəfiqdir

*Xəbər verdiyimiz kimi, noyabrın 20-25-də Azərbaycan Silahlı Qüvvələrində "NATO günləri" keçirilib. Tədbir ekspert qrupu tərəfindən təşkil olunub. Hərbi Tərəfdaşlıq İdarəsinin qərargah rəisi polkovnik Aleksander Şvabın (Kanada) rəhbərlik etdiyi nümayəndə heyəti Silahlı Qüvvələrin Hərbi Akademiyası, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi və Hərbi Dəniz Qüvvələri komandanlığını ziyarət edib.*

Tədbir çərçivəsində Silahlı Qüvvələrin zabit və kursant heyəti üçün "NATO bu gün", "Azərbaycan-NATO əməkdaşlığı", "NATO-nun arzu etdiyi strateji təsir", "NATO-nun mövcud Dəniz Qüvvələri", "NATO Varşava Sammitindən sonra", "NATO-nun Tərəfdaşlıq Siyasəti və Cənubi Qafqaz", "Qlobal kiber-inkişaf və NATO-nun cavabı" mövzularında mühazirələr oxunub.

Şimal Atlantik Alyansının nümayəndələri Azərbaycan Silahlı Qüvvələrində "NATO günləri" çərçivəsində öz təəssüratlarını bölüşüblər.

NATO-nun Hərbi Tərəfdaşlıq İdarəsinin qərargah rəisi polkovnik Aleksander Şvab bildirib ki, Azərbaycan alyans üçün çox vacib müttəfiqdir. "Biz Azərbaycanla 1994-cü ildən etibarən sıx əlaqələr qurmuşuq. Bu münasibətlər uzunmüddətlidir və Cənubi Qafqazda ən mühüm əlaqələrdən biri hesab olunur. Azərbaycanda 9 ildir keçirilən



"NATO günləri" çərçivəsində aparılan əməkdaşlıqdan məmnunuq. Biz sizin ölkənin NATO missiyaları və onun əməliyyatlarının bir çox aspektləri ilə əməkdaşlığını müsbət qiymətləndiririk. Azərbaycan göstərdi ki, NATO-nun bir çox proqramlarının dəyərli və mühüm iştirakçısıdır. Azərbaycanın NATO ilə hərbi əməkdaşlıq istiqaməti çox genişdir. Azərbaycan NATO tərəfindən təşkil olunan təhsil və təlim əməkdaşlığı fəaliyyətində, həmçinin mütəxəssislər üçün effektiv olan birgə proqramlarda aktiv şəkildə iştirak edir.

Biz NATO-nun Baş qərargahında bütün alyans boyunca ekspertlərin təmsil olunduğundan məmnunuq. Nəticədə, bu, bizə sizin ölkənin müdafiə və təhlükəsizliyi barədə məlumat almağa, digər tərəfdən Azərbaycan zabitləri və NATO qərargahı arasında qarşılıqlı təcrübə mübadiləsini realizə etməyə imkan verir. Hərbi əməkdaşlığın ən əsas ünsürü ünsiyyətdir.

Azərbaycana səfərimizin əsas məqsədi uğurla əməkdaşlıq etdiyimiz sahələri nəzərdən keçirməkdir. Biz buna nail olduq. Azərbaycanın hərbi mütəxəssisləri ilə maraqlı görüşlərimiz oldu, bir daha təhlükəsizlik sahəsində və gələcəkdə əməkdaşlığımızın daha da genişləndirilməsinin mümkün olduğu sahələri nəzərdən keçirdik", - deyə polkovnik A.Şvab qeyd edib.

NATO-nun Hərbi Tərəfdaşlıq İdarəsinin region üzrə zabiti polkovnik-leytenant Bahadır Uçar isə qeyd edib ki, bu tədbirdə ən mühüm sual, gördüyümüz işlərlə əlaqədar fikir mübadiləsi aparmaqdan ibarətdir. "Bu fikirlər həm NATO, həm də Azərbaycan üçün çox faydalıdır. Hər il baş tutan səfərlərimiz çərçivəsində biz hərbi məktəbləri, hərbi akademiyaları və digər hərbi obyektləri ziyarət edərək NATO tərəfindən həyata keçirilən işlər barədə təbliğat aparırıq. Həmçinin Azərbaycan NATO ilə hərbi əməkdaşlıq sahəsində gördüyü müxtəlif işlərin təqdimatını həyata keçirir. Belə tədbirlər bizim qarşılıqlı əlaqələrimiz üçün yaxşı zəmin yaradır".

Operativ İmkan Konsepsiyası şöbəsinin rəhbəri polkovnik-leytenant Tommi Hirsti Azərbaycan hərbçilərinin peşəkarlığını yüksək qiymətləndirib.

"Azərbaycan Operativ İmkanlar Konsepsiyasına 2004-cü ildə qoşulub. Son qiymətləndirmələr göstərir ki, ümumilikdə, hər şey çox yaxşı təşkil edilib, birləşmələr NATO standartlarına uyğun şəkildə çox yaxşı təşkil edilib. Bu, bütün birləşmələrə aiddir. Zabitləriniz bilik və bacarıqları sayəsində işlərin öhdəsindən hörmətə layiq və Operativ İnsan Konsepsiyasının rəğbətini qa-



zanacaq şəkildə gəlirlər, həmçinin NATO haqqında geniş bilik dairəsi əldə etdiklərini, Azərbaycanla öz təcrübələrini bölüşürlər", - deyə T.Hristi bildirib.



NATO Birləşmiş Komandanlıq qərargahının Brunssumdakı zabiti mayor İyonel Bokanın sözlərinə görə, Azərbaycan öz hərbi qüvvələri ilə Əfqanıstandakı sülhməramlı missiyaya kömək edir. Bu, Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri (ISAF) tərəfindən keçirilən və hazırda "Qətiyyətli yardım" adı altında keçirilən missiya ilə başlanıb. NATO Azərbaycanın Əfqanıstandakı əməliyyatlarda yardım göstərməsini, həmçinin missiya çərçivəsində peşəkarlığını müsbət qarşılayır. NATO "Qətiyyətli yardım" missiyasını davam etdirəcək. Biz məhz bu baxış bucağından əməkdaşlığımızın uğurla davam etdirilməsini istəyirik".

**Ehtiyatda olan polkovnik-leytenant Rəşad MƏMMƏDOV,**
**kapitan Kamil MƏMMƏDOV,**
**fotolar A. ABDURAHMANOVUNDUR**




# Səməd bəy Mehmandarov haqqında nə bilirik?

*Noyabrın 24-də "N" hərbi hissəsində "Səməd bəy Mehmandarov haqqında nə bilirik" adlı artilleriya estafet yarışı keçirildi. Keçirilən yarışın məqsədi tam artilleriya generalı Səməd bəy Mehmandarov kimi şanlı döyüş yolu keçən bir sərkərdəmizin xatırlanması ilə yanaşı, Azərbaycan Ordusnun, o cümlədən artilleriyaçıların, rabitəçilərin və kəşfiyyatçıların döyüş hazırlığının yüksəldilməsidir.*

Yarış zamanı şəxsi heyətin qarşısında dörd əsas tələb qoyuldu - rabitə əlaqəsinin yaradılması, kəşfiyyat cihazlarının işə hazırlanması və kəşfiyyatın aparılması, minaatan qurğulardan istifadə qaydaları və hesablayıcıların üsulları.

Şəraitə uyğun olaraq müəyyən mövqe tutan artilleriya rabitəçiləri tərəfindən rabitə vasitələrinin düzgün istismarı və rabitə əlaqəsinin yaradılması icra olundu. Rabitəçilər avadanlıqları işə salıb şərti düşmənin canlı qüvvə və texnikası barədə məxfilik rejiminə əməl etmək şərtilə məlumatları aldılar və mərkəzi qərargaha ötürdülər. Bundan başqa real döyüş şəraitinə uyğun olaraq rabitəçilərin praktiki hazırlığı da yoxlanıldı.

Artilleriya kəşfiyyatçıları şərti düşmənin arxasında kəşfiyyat və əks-kəşfiyyat əməliyyatları həyata keçirdi, onların idarəetmə bacarıqları yoxlanıldı. Eyni zamanda estafet yarışında minaatan qurğulardan istifadə edən şəxsi heyət də döyüş bacarıqlarını nümayiş etdirdi.

Artilleriya rabitəçiləri vasitəsilə komandirindən əmr alan hesablayıcılar koordinatlara əsasən düşmənin hədəflərini müəyyən edərək mərkəzə ötürdülər. Bundan sonra minaatan qurğuların şəxsi heyətinin tapşırığı yerinə yetirməyə hazır olması haqqında məlumat ötürüldü.

Qalib gələnlərə kubok, qol saatı və fəxri fərmanlar təqdim olundu.

* * *

Noyabrın 25-də "N" hərbi hissəsində "Tam artilleriya generalı Səməd bəy Mehmandarov haqqında nə bilirik?" adlı viktorina keçirildi.

Polkovnik Mehman Kərimov çıxış edərək Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri general Səməd bəy Mehmandarovun həyatı və fəaliyyəti haqqında danışdı.

Viktorina başlanmazdan əvvəl xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olan soydaşlarımızın ruhu bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.



Aparıcı müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Xəyalə İbrahimova viktorinada iştirak edən "Zərbə", "Həmlə", "Şahdağ", "Tankçılar" və "Xəzri" komandaları haqqında məlumat verərək yarışın qaydalarını izah etdi.

"Həmlə" komandası 1-ci, "Tankçılar" 2-ci və "Zərbə" 3-cü yerə layiq görüldülər.

**Leytenant Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

# Əsgər oğluma məktub

## Vətəni də anan kimi qorumalısan, oğul!



Şərafət MUQUZOVA,
əsgər anası

Əziz oğlum, əsgər balam! Bilirəm, ailəmizin yeganə kişisi olaraq bizi düşünüb fikir çəkəcəksən. İlk vaxtlar darıxacaqsan. Amma gün keçdikcə daha çox iradə toplayaraq mətinləşəcəksən.

Evdə, məktəbdə Vətən sevgisindən nə qədər danışsaq da, bu məhəbbətin əslini orada - hərbi xidmətdə hiss edəcəksən! Əsgər oğlum, igid balam! "Əsgər" kəlməsi böyük bir məna ifadə edir. Əsgərlik kişilik, vətəndaşlıq məktəbidir. Səni bayrağımıza sevgi ilə böyütdüm. Yurda, torpağa, dövlətə sevgi aşıladım. Böyüdün, qəlbinin diktəsi ilə otağında Azərbaycan bayrağını asdın. Əsgər olmaq, əldə silah Vətənə xidmət etmək arzusu ilə yaşadın! Lap kiçik yaşlarında "əsgər-əsgər" oynadığın yadındamı? "Marş irəli, Azərbaycan əsgəri" - deyə addımlardın həyətdə. Bir oyuncaq qılıncın da vardı. Bəzən gecələr əlində qılıncla başımızda durub "Rahat yatın, mən qəhrəmanam, keşikdəyəm, əjdahanı öldürəcəm, düşmənlə savaşacam", - deyirdin. Bax, oğlum, bu gün həmin gündür! Biz indi rahat yatır, sən bizim - xalqın keşiyini çəkirsən.

Şübhəsiz, şanlı Azərbaycan bayrağını öpüb and içəndə Vətənin dəyərini daha çox anlamısan. Bu bayrağın sənin müstəqilliyinin, gələcəyinin olduğunu daha dərindən hiss etmisən. Bu yurdun, bu Vətənin təhlükəsizliyinin sənin kimi oğulların, igidlərin əlində olduğunu da dərk etmisən. Vüqarınla, əzminlə Vətənə borcunu ləyaqətlə ödəyəcəyinə əminəm! Təlimlər keçəcək, qollarına, dizlərinə qüvvət yığacaq, hərbin sirlərinə yiyələnəcəksən. Ana qoynuna sığındığın, qoxusunu duyduğun qədər indi ruhən və cismən ana torpağa daha yaxın olacaq, ətrini ciyərlərinə çəkəcəksən. Unutma, o torpaqda yüzlərlə, minlərlə şəhidin qan izləri var. Onu da hiss edəcəksən. Doğmalarımızın qanı ilə suvarılmış bu torpağı yenidən dirçəltmək, işğalda olan hissəsini azad etmək, qorumaq sizin borcunuzdur! "Hər şey Vətən üçün!" şüarı ilə addımlayarkən ananın bu



məktubunu xatırla. Unutma: dünən evini, ailəni, ananı qoruduğun kimi, bu gün Vətənini, dövlətini, torpağını, elini qorumalısan! Qorumalısan ki, evin də, elin də yaşasın!

Əziz oğlum! Uzun illər kimsəsizlərə də analıq etdim. Çoxları məni "Əsgər anası!" deyə çağırdı. Bu gün sayəndə, həqiqətən də, əsgər anasıyam! Səninlə fəxr edirəm, oğlum! Xidmətdə olduğun bu az müddətdə hər dəfə komandirlərinin, əsgər yoldaşlarının dilindən "Təşəkkür edirik, oğlunuz intizamlı, nümunəvi əsgərdir!" - sözünü eşitməyim məni çox qürurlandırır. Belə davam et! Hər ay sənə bir məktub yazacam. 16-cı məktubda xidmətin sona çatmış olacaq.

Əziz balam! Yanına valideyni gələ bilməyən əsgərlər də olacaq. Onlara qardaş-sirdaş ol, dayaq dur! Bütün əsgər və zabitlərimizi Allaha əmanət edirəm!

Vətənə xidmətdə uğurlarınız bol olsun!

# Xəbərlər: hadisələr, faktlar

## Misirdə törədilmiş terror aktı ilə əlaqədar Türkiyədə matəm elan olunub



Misirdə çoxlu sayda insanın həlak olması ilə nəticələnən terror aktına görə noyabrın 27-də Türkiyədə birgünlük matəm elan edilib.

Bununla əlaqədar Türkiyənin dövlət bayraqları yarıyadək endirilib.

Xatırladaq ki, Sinay yarımadasının şimalındakı Ər-Rauda məscidində cümə namazı zamanı törədilən terror aktı nəticəsində həlak olanların sayı 305 nəfərə çatıb. Onlardan 27-si uşaqdır. Hadisə nəticəsində 128 nəfər müxtəlif dərəcəli xəsarət alıb.

## Koreya Respublikası və ABŞ 230 hərbi təyyarənin iştirakı ilə irimiqyaslı təlimlər keçirəcək



Koreya Respublikası və ABŞ dekabrın 4-dən 8-dək 230 hərbi təyyarənin iştirakı ilə irimiqyaslı birgə təlimlər keçirəcək.

Şimali Koreyaya qarşı güc nümayişi hesab olunan hava hücumu təlimlərinə ümumilikdə 12 min hərbçi, o cümlədən hərbi dəniz qüvvələrinin kontingenti cəlb olunacaq.

Bildirilir ki, ABŞ hərbi hava qüvvələrinin 6 "F-22 Raptor" qırıcı və 4 "F-35A" qırıcı-bombardmançı təyyarəsi təlimlərdə şərti döyüş tapşırıqlarını yerinə yetirəcək. Bu, 6 "F-22" təyyarəsinin Koreya Respublikası səmasında eyni vaxtda ilk uçuşu olacaq.

## KXDR rəsmisi ölkənin nüvə proqramının təkcə ABŞ-ı hədəflədiyini açıqlayıb



Koreya Xalq Demokratik Respublikası (KXDR) Ali Xalq Məclisi Rəyasət Heyəti sədrinin müavini Ri Cun-hyok bəyan edib ki, ölkəsinin nüvə proqramı təkcə ABŞ-ı hədəfləyib, digər ölkələrin bundan narahatlığına heç bir əsas yoxdur.

Ri Cun-hyokun bu fikirləri KXDR-in rəsmi qəzeti "Rodong Sinmun"da dərc olunmuş məqalədə əksini tapıb. Şimali Koreya rəsmisi bildirib: "Bugünkü reallıq göstərir ki, bizim nüvə proqramımız ABŞ-ın Asiya-Sakit okean bölgəsində hegemonluq ambisiyasına qarşı, habelə Koreya yarımadasında və bölgədə sülhün və sabitliyin təminatına yönəlib. Bu, Koreya xalqının qəti qərarıdır ki, biz ABŞ ilə qarşıdurmada güc balansını yalnız nüvə silahı vasitəsilə təmin edə bilərik".

Şimali Koreyanın nüvə silahını "Ədalət qılıncı" hesab edən KXDR rəsmisi əlavə edib ki, bu qılınc ABŞ ilə döyüş məqsədi daşıyır. KXDR-ə qarşı istilaya və hər hansı təxribata qoşulmayanadək başqa heç bir ölkə üçün bizim nüvə silahımızdan təhdid yoxdur.

## Çində baş verən partlayışda 2 nəfər ölüb, 30-dan çox insan yaralanıb



Çinin Cıcian vilayətinin Ninbo şəhərində bu gün səhər saatlarında baş verən güclü partlayışda 2 nəfər ölüb, 30-dan çox adam yaralanıb.

Yerli vaxtla səhər 9:00 radələrində şəhərin əsasən kiçik müəssisələrin yerləşdiyi məhəlləsindəki sexlərdən birində baş verən partlayış nəticəsində dağıntı qeydə alınıb. Yaxınlıqdakı binalara və avtomobillərə müəyyən qədər zərər dəyib. Hələlik partlayışın səbəbi məlum deyil.

Yaralananların hamısı xəstəxanalara yerləşdiriliblər. Onlardan ikisinin vəziyyəti ağırdır. Hüquq-mühafizə orqanlarının əməkdaşları araşdırma aparırlar.

**AZƏRTAC-ın materialları əsasında**

# Erməni zabit nöqsanlardan danışdı, özünü bəlaya saldı

Düşmən ordusunun zabiti, komandir müavini Sulik Danielyan qışa hazırlıqla əlaqədar ön xətt mövqelərindəki vəziyyətlə bağlı məruzə hazırlayıb. "Zampolit" vəzifəsində xidmət edən Sulik Danielyan Ermənistan ordusundakı nöqsanlardan danışıb və özünü bəlaya salıb.

Onun hazırladığı məruzədə deyilir: "Şəxsi heyət qış mövsümünə zəif hazırlıqlıdır. İsitmə şəraitləri yoxdur. Yanacaq və isti geyim ləvazimatları çatışmır. Ona görə də şəxsi heyət arasında külli xəstəlik, əsasən dəpnevmaniya yayılmaqdadır. Hərbi kontingent soyuqdan donmamaq və özünü qızdırmaq məqsədi ilə əsasən spirtli içkilərdən istifadə edir ki, bu da onlar arasında nizam-intizamın zəifləməsinə və nizamnamədən kənar münasibətlərin meydana gəlməsinə səbəb olur".

İşğalçı ordudakı nöqsanları məruzəsində qeyd edən və yaxınları ilə bölüşəndən sonra komandir müavini S.Danielyan yuxarı komandirlər tərəfindən təqiblərə və təzyiqlərə məruz qalıb. Yazdığı məruzədən sonra özünə qarşı münasibətdən təngə gələn ermənistanlı zabit ordudan tərxis olmaq üçün yollar axtarır.

**İsa ELDAROĞLU**

# Naxçıvan Olimpiya İdman Kompleksində təşkil olunan hərbi qulluqçuların voleybol birinciliyi başa çatıb



"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır" devizi altında təşkil olunan kütləvi idman tədbirlərinin davamı kimi Naxçıvan Qarnizonu üzrə hərbi qulluqçular arasında voleybol birinciliyi keçirilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Voleybol Federasiyası və Əlahiddə Ümumqoşun Ordunun birgə təşkil etdikləri birincilikdə 16 komanda qələbə uğrunda mübarizə aparıb. Olimpiya sistemi üzrə keçirilən yarışlara Əlahiddə Ümumqoşun Ordunun zabiti mayor Vahid Məmmədov rəhbərlik edib.

Gərgin mübarizə əzmi ilə yadda qalan voleybol birinciliyində Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının, motoatıcıların və Heydər Əliyev adına Hərbi Liseyin komandaları daha əzmkar oyunlarına görə ilk üçlüyə daxil ola biliblər. Yekun nəticələrə əsasən üçüncü yerdə Heydər Əliyev adına Hərbi Liseyin kursantları, ikinci yerdə motoatıcılar, birinci yerdə isə Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının komandası qərarlaşıb. Qaliblərə Əlahiddə Ümumqoşun Ordu komandanlığı tərəfindən kuboklar təqdim edilib.

**Leytenant Nəriman NƏCƏFOV, "N" hərbi hissəsi, foto əsgər R.ƏLƏSGƏROVUNDUR**

AZƏRBAYCAN ORDUSU

# Vətəni sevmək vətənləşmək deməkdir

## Həzi Aslanov adına Mərkəzi Zabitlər Evində "Vətəni, torpağı qorumaq hər bir kəsin müqəddəs borcudur" mövzusunda ədəbi-bədii tədbir keçirilib

Vətən - doğma diyar, ana yurd...

Vətən - tariximiz, ənənələrimiz, azadlığımızdır...

Vətən - bir millətin illər uzunu yaşadığı, varlığının, şüurunun, birliyinin torpağı ilə birləşdiyi məkan.

Abbas Səhətin "Vətən" şeirini xatırlayıram.

Nə Vətənsiz "Vətən" millət, nə də millətsiz bir Vətən var.

Vətənə bağlılıq onu sevmək, qorumaq deməkdir.

Vətəni sevmək torpağını, daşını, havasını, suyunu sevmək deməkdir.

Bunlar birləşəndə kamil bir sevgi - vətənpərvərlik meydana çıxır.

Vətəni sevmək vətənləşmək deməkdir...




Həzi Aslanov adına Mərkəzi Zabitlər Evində bu deyilənlərə istinadən yeniyetmələrin hərbi vətənpərvərlik ruhunda formalaşması və onlarda Vətənə, torpağa bağlılıq, dövlətə sədaqət hisslərinin təbliği məqsədilə "Vətəni, torpağı qorumaq hər bir kəsin müqəddəs borcudur" mövzusunda ədəbi-bədii tədbir keçirildi.

Paytaxtımızın orta ümumtəhsil məktəblərinin müəllim və şagirdlərinin iştirak etdiyi tədbirdə öncə ümummilli lider Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Mərkəzi Zabitlər Evinin təbliğat və hərbi kütləvi iş bölməsinin rəisi kapitan Ramil Qasımov tədbiri ümummilli liderimiz Heydər Əliyevin "Hər bir vətənpərvər adam, millətini, xalqını sevən hər bir azərbaycanlı



Azərbaycanın müstəqilliyinin daimi, dönməz olması üçün səy göstərməlidir!.." sözləri ilə açaraq bildirdi ki, vətənpərvərlik tərbiyəsi hər bir zaman üçün vacib amildir.

Zabitin sözlərinə görə, müstəqilliyimiz, yaşadığımız dövr bizdən bu hissləri daha da möhkəmləndirməyi tələb edir. Gənc nəslin həm fiziki, həm də mənəvi cəhətdən sağlam böyüməsi, milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə olunması müstəqil dövlətçiliyimizin möhkəmləndirilməsi, ölkənin ideya-siyasi, elmi və mədəni tərəqqisi üçün mühüm amildir.

- Vətənpərvərlik hissi insanın daxilində olan bir hissdir, - zabit dedi. - Əgər bu hiss sənin daxilində yaranmayıbsa, o zaman nə Vətənini, nə torpağını, nə də valideynlərini sevə bilərsən. Vətənpərvərəm deməklə iş bitmir. Hər bir insan vətənpərvərliyini əməlləri ilə, gördüyü işlərlə sübut etməlidir və buna borcludur. Vətənpərvərlik anlayışı özündə Vətənə, millətə sevgi hissini, müxtəlif istiqamətlərdə xidmət etməyi birləşdirir..."

Bölmə rəisi çıxışında Azərbaycan Respublikası Silahlı Qüvvələrinin suverenliyimizin, ərazi bütövlüyümüzün, onun toxunulmazlığının və mənafeyinin müdafiəsinə xidmət etdiyi haqqında da ətraflı məlumat verdi. Gənclərin diqqətinə çatdırdı ki, ordumuz bu müqəddəs vəzifələri həyata keçirmək üçün hər an döyüşə hazırdır. "Buna görə də ilk olaraq ordumuzda möhkəm hərbi intizam mövcuddur. Hərbi intizam yüksək döyüş hazırlıqlı və döyüş qabiliyyətli ordunun əsas təməlidir. İnanıram ki, siz yeniyetmələr də gələcəkdə Silahlı Qüvvələrin hərbi qulluqçuları kimi hərbi nizamnamələrin tələblərinə riayət edəcəksiniz. Hərbi and içən hərbi qulluqçular Vətənə, dövlətə sadiq əsgər olmaqla yanaşı, intizamlı olmağa da and içirlər və andı pozarlarsa, Azərbaycan Respublikasının qanunlarına əsasən tam ciddiyyəti üzrə məsuliyyət daşıdıqlarını dərk edirlər. Bu, İntizam Nizamnaməsində də öz əksini tapmışdır..."

Mədəni-bədii iş bölməsinin müdiri Gülxar Məmmədova da tədbirdə çıxış edərək bildirdi ki, vətənpərvərlik tərbiyəsi, gənc nəslin bu ruhda formalaşması cəmiyyətdə daim aktualdır. "Millətin vətənpərvərliyi onun tamlığının, bütövlüyünün təməlidir. Bir xalqın, millətin vətənpərvərlik şüuru onun digər xalqlar və millətlər tərəfindən qəbul edilməsi, tanınması, hörmətlə qarşılanması, ən əsası isə o xalqın, dövlətin bütövlüyü, varlığı, suverenliyi ilə ölçülür. Mərd, mübariz oğul və qızlarımız doğma Vətənlərini həmişə hərarətlə sevib, onun qədrini bilib, Vətən naminə canlarını qurban verməkdən çəkinməyiblər. İgid Vətən övladları doğma yurd namine canlarından keçməklə əsl vətənpərvərlik nümunəsi göstərir, özlərindən sonra şərəfli bir iz qoyurlar. Vətənpərvərlik Vətənin göz bəbəyi kimi qorunması kimi təzahür edir, bunu bugünkü gənclərimiz bütün məsuliyyəti ilə dərk edirlər."

Millət olaraq istiqlaliyyətimizi qazandıqdan sonra ilk olaraq tanış olduğumuz müqəddəs kəlmələrdən biri də şəhid, şəhidlik kəlmələri oldu. Müstəqilliyi və torpaqları uğrunda şəhidlər vermiş bir millət üçün şəhidlikdən daha müqəddəs bir şey ola bilməz. Xalqımız şəhidlərini unutmur. Natiqlər noyabrın 24-nün Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun doğum günü olmasını da xatırlatdılar. Gənclərimiz də öz növbəsində tariximizin şanlı səhifələrinə adlarını qanla yazan belə vətənpərvər oğullara layiq olacaqlarını bildirdilər.

176 saylı orta məktəbin X sinif şagirdi Ayla Heydərli insanın fərd kimi doğulub, şəxs kimi fəaliyyət göstərərək vətəndaş hazırlığı keçdiyini deyərək sözə başladı:

- Vətəndaş dedikdə bilavasitə Vətənə, dövlətə sədaqətlə xidmət edən, mənəvi keyfiyyətlərə malik olan insan başa düşülür. Vətəndaşlıq tərbiyəsinin mənbəyi ailə, bu tərbiyənin səmərəli nəticəsi isə vətənpərvərlikdir. Fikrimcə, Vətəni sevmək üçün onu daha əhatəli tanımaq lazımdır. Belə olarsa, o fərd Vətənin hər qayasını-daşını, çölünü-çəmənini, düzünü, yolunu, cığırını-izini sevəcək. Bu istiqamətdə Prezident İlham Əliyevin tapşırığına əsasən ölkəmizin tarixinin, mədəniyyətinin, adət-ənənələrinin, müstəqillik illərində əldə edilmiş nailiyyətlərin dərindən öyrənilməsi məqsədilə "Ölkəmizi tanıyaq" adı ilə maarifləndirici aksiyaların keçirilməsi də çox təqdirəlayiqdir. Belə tədbirlər bizlərə Vətəni daha dərindən sevdirir. Biz məktəblilər Ulu Öndərin bir kəlamını da heç vaxt unutmayacağıq. "Vətənpərvərlik insanın daxilindəki duyğulardır. Əgər bunlar yoxdursa, o insan mənəviyyatsızdır."

X sinif şagirdi çıxışında bu gün vətənpərvər olmağı Vətənini canından əziz bilən Yusifdən, Mübarizdən, Samiddən, Muraddan, Çingizdən ... öyrəndiklərini bildirdi.




Gənclərin çağırışaqədərki hazırlığı fənnini tədris edən müəllim, Qarabağ müharibəsi veteranı, ehtiyatda olan mayor Rəhbər Məmmədov isə bildirdi ki, onların ən başlıca vəzifəsi hər bir gənci orduya, Vətənə xidmətə hazırlamaqdan ibarətdir. "Yaşadığımız dövr gənc nəsli erkən yaşlarından hərbi ruhda böyütməyi tələb edir. Hər an Ali Baş Komandanın əmrinə hazır bir dövlətin şagirdlərini psixoloji baxımdan hərbi həyata hazırlamaq vacibdir. Vətəni sevmək, düşmənin hər cür təxribatlarına qarşı tədbirli olmaq və zamanı gələndə onun üçün canını vermək müqəddəs bir vəzifədir. Vətənə hücum, həmlə, təxribat varlığımıza, birliyimizə, azadlığımıza edilən hücumdur. Gənclərimizi Vətənimizin düşmənlərinə qarşı ayıq-sayıq, mübariz ruhda tərbiyələndirmək ən böyük və ümdə vəzifəmizdir."

Oğlunun ordu sıralarında zabit olaraq xidmətiylə qürurlanan ehtiyatda olan mayor ötən dövrlə müqayisədə ordu quruculuğunda qazanılan uğurları ötən ilin aprelin əvvəllərində ordumuzun cəbhə xəttində düşmənə qətiyyətli cavab verməsini, həmçinin dövlət rəhbərliyi tərəfindən şəhid ailələrinə və müharibə əlillərinə göstərilən yüksək qayğının böyüməkdə olan nəslin vətənpərvərlik tərbiyəsində rolunu, şagirdlərdə əsgəri həyata güclü maraq doğurduğunu da qeyd etdi.

Vətənpərvərliklə bağlı əsərlərdən birində oxumuşdum: "Hər bir sağlam, azad yaşamağa qadir xalqda milli mənsubiyyət, Vətən hissi ən üstün bir dəyərdir.

Xalqda vətənpərvərliyi formalaşdıran iki amil mövcuddur: xalqın qəhrəmanlıq keçmişi və xalqın bu gün ictimai həyatın müxtəlif sahələrində əldə etdiyi sosial nailiyyətlər".

Ordu quruculuğundan bəhs edən "Zəfərə doğru" filmi də tədbirdə nümayiş etdirildi. Bu filmdə ordumuzun ilk yarandığı vaxtdan günümüzədək olan inkişafından bəhs olunurdu. Ordumuzun inkişaf yolu, müasir vəziyyəti gənclər tərəfindən diqqətlə izlənildi.

Tədbir Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin konserti ilə tamamlandı. Solistlərdən Günay Qasımovanın, Elçin Məmmədovun, Vüsal Ağayevin, Yaqut Xəlilzadənin və Ağabala Abdullayevin ifalarında "Can Azərbaycan", "Vətən əmanəti", "And içirik", "Qarabağ", "Bayraqtəpə", "Zəfər marşı"... kimi vətənpərvərlik musiqiləri, eləcə də bir-birindən maraqlı rəqslər xoş ovqatla qarşılandı.

Sonda general-leytenant Kərim Kərimov adına 8 saylı, Məmməd Rəhim adına 7 saylı və 176 saylı orta ümumtəhsil məktəblərinin direktorları vətənpərvərlik tədbirlərində davamlı olaraq iştirak etdiklərinə görə fəxri fərmanlarla təltif olundular.

**Leytenant Günay TAĞIYEVA, "Azərbaycan Ordusu"**

Məsul katib
polkovnik-leytenant İlham BEHBUDOV

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

Ünvanımız
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

Növbətçi
leytenant Mahmud MÖHBALIYEV

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 654
Nüsxə 4600